"AzerBlast" MMC
SƏNƏDİN ƏSLİ

"AzerBlast" MMC
NƏZARƏT NÜSXƏSİ

AzerBlast

**TƏSDİQ EDİLDİ**

"AzerBlast" MMC-nin Müşahidə Şurasının
16 yanvar 2023-cü il tarixli
"AB-MŞ-001/23"-№li qərarı ilə

**"AzerBlast" Məhdud Məsuliyyətli Cəmiyyət**

**"Korrupsiyaya qarşı mübarizəyə dair" Siyasət**

**Sənəd № AB.H.S.04**

| | Tarix | İmza |
|---|---|---|
| **Hazırladı:**<br>"AzerBlast" MMC-nin Hüquqi məsələlər üzrə meneceri Zeynal Hüseynov | 09.01.2023 | |
| **Yoxladı:**<br>AzerBlast" MMC-nin SƏTƏM və KİS üzrə meneceri Hamlet Qocayev | 09.01.2023 | |
| **Razılaşdırıldı:**<br>"AzerBlast" MMC-nin İcraçı direktoru Rizvan Baxşiyev | 10.01.2023 | |

Bu sənədin möhür və imzalarla təsdiqlənməmiş nüsxələri yalnız məlumat üçündür, icazəsiz tam və ya qismən yaymaq və başqa təşkilatlara ötürmək olmaz.

# MÜNDƏRİCAT

1. Giriş ....................................................................................3

2. Siyasətin məqsədi və əhatə dairəsi....................................................3

3. Siyasətin formalaşmasının prinsipləri ................................................3

4. Yekun müddəalar ......................................................................5

"AzerBlast" MMC
NƏZARƏT NÜSXƏSİ

"AzerBlast" MMC
SƏNƏDİN ƏSLİ

Bu sənədin möhür və imzalarla təsdiqlənməmiş nüsxələri yalnız məlumat üçündür, icazəsiz tam və ya qismən yaymaq və başqa təşkilatlara ötürmək olmaz.

## 1. Giriş

"AzerBlast" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra - Cəmiyyət) "Korrupsiyaya qarşı mübarizəyə dair" hazırkı siyasət (bundan sonra - Siyasət) ilə Cəmiyyət öz fəaliyyətində korrupsiyanın qəbul edilməməsi və korrupsiyaya qarşı mübarizə üzrə mədəniyyət səviyyəsinin artırılması, işgüzar nüfuzun dəstəklənməsi və fəaliyyətin açıqlıq və şəffaflığının təmin edilməsinə riayət edir. Bununla, Cəmiyyət işgüzar fəaliyyətin yüksək etik standartlarına sadiqliyini əks etdirilməsi və fəaliyyətində korrupsiya risklərinin minimuma endirilməsi üzrə tədbirlərin həyata keçirilməsinə çalışır.

## 2. Siyasətin məqsədi və əhatə dairəsi

Hazırkı Siyasət ilə Cəmiyyət öz fəaliyyətində korrupsiyaya qarşı mübarizə ilə bağlı hər hansı hüquqpozmalara yol verilməməsini, sosial ədalətin, insan və vətəndaşın konstitusional hüquq və azadlıqlarının müdafiə olunmasını, bu sahədə dövlətin və Cəmiyyətin maraqlarının qorunmasını, Cəmiyyətin fəaliyyətinin qanuniliyinin, şəffaflığının və səmərəliliyinin təmin edilməsini, habelə bu Siyasət üzrə müddəaların, tutduğu vəzifədən asılı olmayaraq, Cəmiyyətin bütün rəhbər və işçi heyəti tərəfindən mütləq icra olunmasını və şəxsi maraqların Cəmiyyətin fəaliyyətinə qarşı istifadə edilməməsini əsas götürür.

Hazırkı Siyasətin tələblərinin əhatə dairəsinə Cəmiyyətə aidiyyəti olan şəxslər, habelə Cəmiyyətin rəhbərliyi və işçilərinin yaxın qohumları daxil edilir.

Tətbiq edilən korrupsiyaya qarşı mübarizə qanunvericiliyi, Cəmiyyətdaxili siyasət və prosedurları, habelə beynəlxalq standartlardan birbaşa irəli gələn hazırkı Siyasətin başlıca prinsip və tələbləri Cəmiyyətdaxili vəzifəsindən asılı olmayaraq bütün işçi heyətinə və qarşı tərəflərə, o cümlədən, təchizatçılara, vasitəçilərə, məsləhətçilərə, digər üçüncü şəxslərə, Cəmiyyətin idarələrinə, nümayəndəliklərinə, filiallarına və törəmə cəmiyyətlərinə şamil edilir.

## 3. Siyasətin formalaşmasının prinsipləri

"Korrupsiyaya qarşı mübarizə haqqında" 01.01.2005-ci il tarixində qüvvəyə minmiş 580-IIQ saylı Azərbaycan Respublikasının Qanunu, İSO 37001 "Antikorrupsiya idarəetmə sistemləri" standartı (Anti-Bribery Management Systems), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının "Korrupsiyaya qarşı mübarizə üzrə İstanbul Fəaliyyət Planının Dördüncü Monitorinq Mərhələsi: Azərbaycanda Antikorrupsiya İslahatları" ("OECD Fourth Round of Monitoring of the Istanbul Anti-Corruption Action Plan: Anti-Corruption Reforms in Azerbaijan"), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının "Xarici vəzifəli şəxslərin beynəlxalq biznes əməliyyatlarında rüşvətxorluğa qarşı mübarizə haqqında Konvensiyası" ("OECD Convention on combating bribery of foreign public officials in international business

"AzerBlast" MMC NƏZARƏT NÜSXƏSİ

"AzerBlast" MMC SƏNƏDİN ƏSLİ

Bu sənədin möhür və imzalarla təsdiqlənməmiş nüsxələri yalnız məlumat üçündür, icazəsiz tam və ya qismən yaymaq və başqa təşkilatlara ötürmək olmaz.

transactions") və bu sahadə digər müvafiq qanunvericiliyin tələblərinə əməl etmək üçün Cəmiyyət bu Siyasəti həyata keçirir.

Hazırkı Siyasətin tələblərindən irəli gələn korrupsiyaya qarşı mübarizə çərçivəsində hüquqpozmaların qarşısının alınması üzrə tədbirlərin idarəedilməsi, pozuntular haqqında məlumatlandırma sistemi, korrupsiya qarşı qanunvericiliyin pozulmasına görə məsuliyyət üzrə prinsiplər və mexanizmlər, habelə digər aidiyyəti müddəalar Cəmiyyətdaxili müvafiq qaydalarda öz əksini tapır.

Korrupsiya fəaliyyətinin qəbul edilməməsini, korrupsiyaya qarşı mübarizə üzrə mədəniyyət səviyyəsinin artırılmasını, işgüzar nüfuzun dəstəklənməsini və fəaliyyətin açıqlığının təmin edilməsini Cəmiyyət bütün rəhbər və işçi heyətindən tələb edir.

Cəmiyyətin hər bir işçisi Cəmiyyətdaxili işgüzar fəaliyyətlərinin həyata keçirilməsi əsnasında, habelə dövlət orqanları, rəsmi şəxslər, ictimai qurumlar və onların nümayəndələri, siyasi xadimlər, müştərilər, təchizatçılar, qarşı tərəflər və digər şəxslərlə qarşılıqlı əlaqə zamanı hər hansı növ və təzahürdə olan korrupsiyanın qəbul edilməməsi prinsipinə riayət edir. Cəmiyyətdə korrupsiya ilə əlaqədar hər hansı hüquqpozmalar qadağan edilir.

Korrupsiya riskinin azaldılması və tətbiq edilən korrupsiyaya qarşı qanunvericiliyin tələblərinə uyğunluğun təmin edilməsi məqsədilə Cəmiyyətdə müntəzəm qaydada maliyyə-təsərrüfat fəaliyyətinin xarici auditi və daxili nəzarət sisteminin mütəmadi qiymətləndirilməsi aparılır, tətbiq edilən qanunvericiliyin və Cəmiyyətdaxili sənədlərin tələblərinin yerinə yetirilməsinə nəzarət həyata keçirilir.

Hazırkı Siyasəti ilə Cəmiyyət bəyan edir ki, Cəmiyyətin Nizamnaməsində qeyd edilmiş əsas məqsədlərinə nail olması, rüşvətin qadağan edilməsi, müvafiq qüvvədə olan antikorrupsiya qanunvericiliyinə riayət edilməsi, korrupsiya sahəsində pozuntular haqqında məlumatların konfidensial şəkildə təqdim edilməsi üzrə şərait yaradılması üçün bütün lazımı tədbirlər həyata keçirilir.

Cəmiyyət hazırkı Siyasətin effektivliyinin daim monitorinqini aparır, onun kifayətliliyi, mütənasibliyi və aktuallığını qiymətləndirir, eləcə də, nəzarət mühitinin nöqsanları əsasında və/ və ya tətbiq edilən korrupsiyaya qarşı qanunvericilikdə və aparıcı beynəlxalq təcrübədə dəyişikliklərə əsaslanaraq onu təkmilləşdirir.

Korrupsiyaya qarşı mübarizəyə dair qanunvericiliyin və Cəmiyyətdaxili sənədlərin tələblərinə uyğunluğun təmin edilməsinə və tətbiqinə nəzarət edən Cəmiyyətin müvafiq struktur bölməsi öz əsasnaməsi ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində fəaliyyətini həyata keçirdir və bu sahədə araşdırmalar zamanı Cəmiyyətin rəhbərliyi tərəfindən müstəqilliyi qorunur.

Cəmiyyətin bütün işçiləri öz vəzifə borclarının yerinə yetirilməsi çərçivəsində hazırkı Siyasət və Azərbaycan Respublikasının qüvvədə olan müvafiq qanunvericiliyi ilə müəyyən

"AzerBlast" MMC
NƏZARƏT NÜSXƏSİ

"AzerBlast" MMC
SƏNƏDİN ƏSLİ

Bu sənədin möhür və imzalarla təsdiqlənməmiş nüsxələri yalnız məlumat üçündür, icazəsiz tam və ya qismən yaymaq və başqa təşkilatlara ötürmək olmaz.

edilmiş korrupsiyanın qarşısının alması üzrə tələblərə riayət edilməməsinə görə məsuliyyət daşıyırlar.

## 4. Yekun müddəalar

Hazırkı Siyasət Cəmiyyətin Nizamnaməsi ilə müəyyən edilmiş təsdiqlənmə prosesini keçdikdən təsdiqləndiyi tarixdən etibarən qüvvəyə minir. Siyasətə hər hansı dəyişiklik və/ və ya əlavələr, aidiyyəti struktur bölmələrin rəyi alınmaqla, Cəmiyyətin İcraçı direktoru ilə razılaşdırılmaqla Müşahidə Şurası tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir.

Siyasət ilə nəzərdə tutulmamış hər hansı hadisənin həlli müvafiq sahədə qüvvədə olan yerli qanunvericiliyin tələblərinə əsasən tənzimlənir.


"AzerBlast" MMC
NƏZARƏT NÜSXƏSİ

"AzerBlast" MMC
SƏNƏDİN ƏSLİ



Bu sənədin möhür və imzalarla təsdiqlənməmiş nüsxələri yalnız məlumat üçündür, icazəsiz tam və ya qismən yaymaq və başqa təşkilatlara ötürmək olmaz.